HADİSƏLƏR KONTEKSTİNDƏ

Uğursuz Daşaltı əməliyyatı



(əvvəli 1-ci səhifədə)

Daşaltı kəndi gözəllikləri, zəngin meşələri və tarixi ilə hər zaman Şuşanın əsrarəngiz guşələrindən biri olmuşdur. Qarabağ silsiləsinin ətəyində yerləşən bu kənd əsrlərin yaddaşını və təbiətin ecazkar mənzərəsini özündə birləşdirir.

Daşaltı kəndinin adı çəkiləndə ilk olaraq 1992-ci il yanvarın 25-26-da həyata keçirilən və uğursuzluqla nəticələnən hərbi əməliyyat yada düşür. Uzun illər erməni işğalında qalan bu kənd sanki bağrına daş basaraq əsl sahiblərinin yolunu böyük həsrətlə gözləyib. Nəhayət, 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun bölmələri tərəfindən ermənilərdən azad edilib. 33 il əvvəl baş vermiş hadisələrə bir daha nəzər salaq...

1988-ci ilin fevralında Xankəndidə başlayan "miatsum" həray-həşiri zamanı Daşaltı kəndi erməni separatçıları üçün əsas dəstək nöqtələrindən birinə çevrildi. Daşaltı Şuşa rayonunda yerləşən ən iri erməni kəndi idi. Separatçılığın artması fonunda SSRİ hakimiyyəti bölgədə sabitliyi bərpa etmək məqsədilə 1991-ci il mayın 15-də bu ərazilərdə "Halqa əməliyyatı" keçirdi. Əməliyyat çərçivəsində Şuşanın ermənilər yaşayan Böyük qaladərəsi, Kiçik Qaladərəsi və Onverst kəndlərindəki separatçılar kəndlərdən çıxarıldılar. Lakin onların çoxu gizlənə bilmişdilər.

1991-ci ilin avqustunda Moskvada baş verən hadisələr regionda gərginliyi daha da artırdı. Mərkəzi hökumətin nəzarətini itirməsi ilə Daşaltı kəndində Vaqarşak Aruşanyanın erməni silahlı qruplarının rəhbərliyi altında yeni dəstələr yaradıldı. Xarici havadarlarının hərbi dəstəyi ilə üstünlük qazanan ermənilər Azərbaycan kəndlərinə qarşı hücum edirdilər. Dekabr ayında baş verən Cəmilli, Kərkicahan və Meşəli kəndlərinin işğalı zamanı erməni silahlıları dinc əhaliyə qarşı xüsusi qəddarlıq nümayiş etdirdilər. Şuşa ətrafındakı kəndlər tədricən erməni silahlı qruplaşmalarının dayaq məntəqələrinə çevrilirdi. Bu, Şuşa-Laçın yolunu və yaxınlıqdakı Azərbaycan kəndlərini müntəzəm atəşə məruz qoyur, həmçinin yeni yaranan milli ordunun təchizatında ciddi problemlər yaradırdı. Yaranmış kritik vəziyyəti nəzərə alan Azərbaycan Ordusunun komandanlığı Daşaltı kəndində yerləşən erməni atəş nöqtələrini məhv etmək məqsədilə hərbi əməliyyat keçirmək qərarına gəldi. Böyük strateji əhəmiyyətə malik bu əməliyyata müdafiə naziri, general-mayor Tacəddin Mehdiyev şəxsən rəhbərlik edirdi. Bu hücum Şuşanın təhlükəsizliyini təmin etmək və düşmənin mövqelərini zəiflətmək məqsədi daşıyırdı.

1992-ci il yanvarın 19-da general-mayor Tacəddin Mehdiyev qalanın müdafiəsini gücləndirmək məqsədilə Şuşaya yola düşür. Əməliyyata hazırlıq üçün önəmli tapşırıqlar verir. Baş qərargah rəisi, general-mayor Şahin Musayevə, Goranboy rayonunda yerləşən Müdafiə nazirinin müavini general-mayor Dadaş Rzayevin tabeliyindəki zirehli texnikanın yarısını Şuşa istiqamətinə göndərməyi əmr edir. Bununla yanaşı, polkovnik-leytenant Sabir Cəfərovun təcili Şuşaya ezam edilməsi və cəbhəboyu erməni qüvvələrini çaşdırmaq üçün diqqəti yayındıran zərbələrin hazırlanması tapşırılır. Əsas hədəf Daşaltı və Əsgəran idi - bu məntəqələrin ələ keçirilməsi ilə erməni qüvvələri iki hissəyə bölünəcək, bu da gələcək əməliyyatlar üçün mühüm üstünlük təmin edəcəkdi. İki gün ərzində aparılan kəşfiyyat nəticəsində məlum olur ki, Daşaltıda 50-60 nəfərlik erməni silahlı dəstəsi mövcuddur, yerdə qalanlar isə mülki əhalidir. Bundan əlavə, Topxanadan Şuşanı atəşə tutan erməni mövqeləri də dəqiqləşdirilir. Əməliyyatın həyata keçirilməsi üçün Şıxov taborundan 200 əsgər ayrılır. General-mayor Tacəddin Mehdiyev, polkovnik Zaur Rzayev, polkovnik-leytenant Nurəddin Abdullayev, Milli Təhlükəsizlik Nazirliyi və Daxili İşlər Nazirliyinin rəsmiləri birgə əməliyyat planını hazırlayır və iştirakçılara tapşırıqlar verilir. Əməliyyatı yanvarın 25-dən 26-na keçən gecə başlamaq qərara alınır. Təbii şərait olduqca çətin idi - hər yeri qalın qar örtüyü bürümüşdü, sıldırım qayalar və güclü şaxta hərəkəti daha da çətinləşdirirdi. Bu çətinliklərə baxmayaraq, əsgərlər özləri ilə çoxlu miqdarda silah və döyüş sursatı aparırdılar. Plana əsasən, birinci taqım Nəbilər kəndindən keçərək Qızılqaya yüksəkliyinə qalxmalı, Daşaltı-Sığnaq yolunu bağlayaraq ikinci taqıma dəstək verməliydi. İkinci taqım isə Daşaltı-Şuşakənd yolunu nəzarətə götürməliydi. Eyni zamanda üçüncü və dördüncü taqımlar yoldan 400-500 metr məsafədə, sağ və sol qanadlarda hücum əmri gözləməliydi. Xüsusi Təyinatlı Polis Dəstəsinin döyüşçülərindən ibarət beşinci taqım ehtiyatda saxlanılmışdı. Bu əməliyyat Azərbaycanın Qarabağda üstünlük əldə etmək uğrunda həyata keçirdiyi strateji addımlardan biri idi.

Əməliyyatın uğurlu olması üçün hər bir detal düşünülmüşdü: hərəkət zamanı taqımlara iki bələdçi və iki kəşfiyyatçı rəhbərlik edirdi, komandirlərə isə bələdçilərin göstərdiyi yoldan çıxmamaq tapşırılmışdı. Lakin döyüş meydanında gözlənilməz maneələr ortaya çıxdı. Rabitənin zəif təşkil olunması, taqımlar və komandanlıq arasında koordinasiyanın olmaması ciddi uyğunsuzluqlara səbəb oldu. Ən böyük zərbə isə bələdçilərin xəyanəti idi. Məhz bu xəyanət əməliyyatın uğursuzluğunu qaçılmaz etdi. Taktiki səhvlər və əməliyyat sirrinin yayılması nəticəsində Azərbaycan qüvvələri düşmənin pusqusuna düşdü. Daşaltıya daxil olan bir neçə taqım ağır itki verərək geri çəkilməyə məcbur oldu. Rəsmi məlumatlara görə, Azərbaycan Ordusu bu əməliyyatda 90-dan çox şəhid verdi, onlarla əsgər isə hələ də itkin sayılır. Düşmən tərəfi isə bir neçə hərbi texnika və 80-nə yaxın canlı qüvvə itirdi. Əməliyyatın daha da uğurlu olması üçün digər cəbhə bölgələrində düşmənə zərbələr endirilməsi planlaşdırılmışdı. Lakin bu, baş vermədi. Bu uğursuzluğundan sonra Azərbaycan ordusu uzun müddət hücum əməliyyatları həyata keçirmədi, məğlubiyyət erməni qüvvələrinə müharibədə təşəbbüsü ələ keçirmək üçün şərait yaratdı. Daşaltıda baş verən məğlubiyyət yalnız hərbi sahədə deyil, həm də milli ordunun və əhalinin döyüş ruhunda ciddi itkilərə səbəb oldu. Əməliyyatın uğursuzluqla nəticələnməsi sonrakı məğlubiyyətləri də ard-arda gətirdi. Ermənistan qoşunları bütün cəbhə boyu üstünlüyə yiyələndilər və Azərbaycan məxsus torpaqların 20 faizini işğal etdilər.

Bu işğal dövründə xalqımız öz gücünü yenidən bərpa etdi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə İkinci Qarabağ müharibəsində və 2023-cü ilin sentyabrında Xankəndi və ətraf ərazilərdə aparılan antiterror tədbirlərində bütün erməni hərbi birləşmələri darmadağın edildi. Vətən müharibəsində Azərbaycan əsgəri tarixi ədaləti bərpa edərək Daşaltı kəndini işğaldan azad etdi. Ermənistan ordusu bir daha anladı ki, qarşılarındakı ordu 1992-ci ilin ordusu deyil. Bu ordu daha güclü, daha hazırlıqlı və daha qətiyyətli idi. Düşmən Azərbaycanın möhtəşəm gücü qarşısında çarəsiz qaldı. Təslim olmaq və geri çəkilmək istəyənlər canlarını qurtarmağa çalışdı, döyüş meydanını tərk etməyənlər isə Azərbaycan əsgərinin zərbələrindən xilas ola bilmədilər. 1992-ci ildə baş verən Daşaltı əməliyyatının ağrısı və itkilərinə görə 2020-ci ilin noyabrında düşməndən qisas alındı. Azərbaycan əsgəri yalnız torpaqları azad etmədi, həm də tarixdə yeni səhifə açdı. İllərdir 25 yanvarı "qürur günü" kimi qeyd edən ermənilər, bundan sonra 8 noyabrı "acizliyin və məğlubiyyətin günü" kimi anacaqlar. Azərbaycan ordusu yalnız Daşaltını yox, həm də düşmənin saxta miflərini yerlə-yeksan etdi. Kəndə Azərbaycan bayrağını əsgər Əmanət Ağaşov asıb. Daha sonra Azərbaycan Prezidenti İlham Əliyev kəndin azad olunduğunu elan edib. Daşaltının strateji önəmi Şuşaya gedən yeganə yolun bu ərazidən keçməsidir. Şuşanı nəqliyyat blokadasından çıxarmaq üçün dərhal Daşaltıdan keçən yol tikintisinə başlanıldı. Zəfər yolu adlanan layihə 2021-ci il noyabrın 7-də icra edildi. Həmin gün Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva Daşaltı kəndində məscidin təməlini qoydular. Torpaqlarımız işğaldan azad edildikdən sonra Birinci Qarabağ müharibəsində itkin düşmüş və şəxsiyyətləri müəyyən edilmiş şəxslərin meyit qalıqlarının eyniləşdirilməsinə nail olundu. Onlardan biri də Milli Qəhrəman Riad Əhmədovdur. Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşı olmuş Azərbaycanın Milli Qəhrəmanı Riad Əhmədov uzun müddət peşəkar zabit kimi təhlükəsizlik orqanlarında çalışıb. 1989-cu ildə erməni silahlı birləşmələri Azərbaycana qarşı elan olunmamış müharibəyə başladığı vaxtdan etibarən bütün bacarığını Milli Ordunun yaradılmasına sərf edib, Azərbaycan Respublikası Müdafiə Nazirliyi Kəşfiyyat İdarəsinin rəis müavini vəzifəsinə təyin olunub. Riad Əhmədov 1992-ci il yanvarın 26-da rəhbərlik etdiyi kəşfiyyat qrupu ilə Daşaltı kəndindəki döyüşdə yaralanaraq itkin düşüb. Torpaqlarımız işğaldan azad edildikdən sonra onun nəşi tapılaraq 2023-cü il sentyabrın 30-da İkinci Fəxri xiyabanda dəfn olunub.

Daşaltı kəndi Böyük Qayıdışın icra olunduğu yaşayış məntəqələrindən biri olacaq. Bura 220 ailənin köçürülməsi planlaşdırılır. Məskunlaşdırılması nəzərdə tutulan əhalinin ümumi sayı isə 1100 nəfər olacaq. Sakinlərin yaşayışı üçün ümumilikdə 228 ev inşa ediləcək. Bundan başqa, ikimərtəbəli çoxmənzilli 9 bina, ikimərtəbəli bloklaşdırılmış ("townhouse" tipli) 66 ev və 153 ikimərtəbəli fərdi ev tikiləcək. Kənddə, həmçinin məscid, Bayraq meydanı, informasiya mərkəzi, qonaq evi, xalq sənətkarlığı emalatxanaları, qida məhsullarının satış köşkləri, ictimai-iaşə və ticarət obyektləri, sərgi salonu, uşaq bağçası, inzibati bina, tibb məntəqəsi, poçt şöbəsi, klub-icma mərkəzi, hotel və istirahət mərkəzi, aktiv turizm və istirahət zonalarının yaradılması nəzərdə tutulur. Bir-birindən ortaq divarla ayrılan üçotaqlı və dördotaqlı yaşayış blokları optimal quruluşuna görə az sahədə bir neçə ailənin yaşamasına imkan yaradır və eyni zamanda onların hər birini şəxsi həyət və terras ilə təmin edir. Həmçinin azmərtəbəli çoxmənzilli tikililər ərazidə yüksək sıxlıq yaratmamaqla əhalini kiçik sahədə yerləşdirmək imkanı verdiyinə görə kəndin planlaşdırılmasında ən optimal həll hesab olunur. Binaların ətrafında sakinlər üçün ümumi istirahət sahələri, yaşıllıqlar, avtomobil dayanacaqları nəzərdə tutulub. Bundan başqa, Daşaltı kəndində özəl sektor üçün investisiya zonasında nəzərdə tutulan evlərin və turizm obyektlərinin tikintisi "PMD Group" MMC tərəfindən yerinə yetirilir. Daşaltıda 2,4 hektar ərazidə kənd üslubunda hotel və istirahət mərkəzi tikiləcək. Hotel kompleksi ikimərtəbəli 10 binadan ibarət olacaq. Ümumilikdə, 48 nömrədən ibarət olacaq hotel kompleksində restoran, əyləncə və idman-sağlamlıq mərkəzləri, uşaqlar üçün oyun meydançası, istirahət parkı yaradılacaq.

Musa BAĞIRLI,
"Respublika".